

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 125 (23.767)

*13 iyul 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Əlizadə Nicat Məmməd oğlu - Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin şagirdi, təhsil sahəsi üzrə

Hümbətova Nazlı Ramin qızı - Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi, şahmat üzrə

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 iyul 2021-ci il*

## Naxçıvanda Vətən Müharibəsi Qəhrəmanlarının ailə üzvləri ilə görüş olub





İyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş və "Vətən uğrunda" medalı ilə təltif olunmuş şəhid polkovnik-leytenant Anar Əliyevin və şəhid kapitan Nihad Babayevin ailə üzvləri ilə görüşmüşdür.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr və 15 dekabr tarixli sərəncamları ilə şəhid polkovnik-leytenant Əliyev Anar Vaqif oğluna və şəhid kapitan Babayev Nihad Akif oğluna ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildiyini və "Vətən uğrunda" medalları ilə təltif olunduqlarını qeyd etmiş, şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmişdir.

Ali Məclisin Sədri demişdir: Şəhidlərimizin hər ikisi hərbi təhsil almış, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordusunda 2014-cü ildən zabit kimi xidmət etmişlər. Fəaliyyətləri dövründə zabit şərəfini layiqətlə qorumuş, təltiflər almış və bu müddətdə xidmətləri ilə hörmət qazanmışlar. Ali Məclisin Sədri bildirmişdir ki, Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə torpaqlarımızın azad olunması uğrunda başlanan İkinci Qarabağ müharibəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları və Naxçıvandan olan könüllülər də iştirak etmiş, şəhidlərimiz və qazilərimiz olmuşdur. Vətən müharibəsi iştirakçılarının, şəhidlərimizin və qazilərimizin xidmətləri yüksək qiymətləndirilmiş, onlar təltif olunmuşlar. Təltif olunanların bir hissəsinə orden və medallar təqdim edilmişdir. Bu gün təltif olunanların hər ikisi isə Vətən Müharibəsi Qəhrəmanlarıdır. Bu ad İkinci Qarabağ müharibəsinin ən yüksək təltifidir.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvlərinə vətənpərvər övladlar yetişdirdiklərinə görə təşəkkür etmiş, Vətənə xidməti ən ali vəzifə hesab edən qəhrəman şəhidlərimizin həm dövlətimizə, həm də ailələrinə başucalığı gətirdiyini vurğulamışdır.

Sonra Ali Məclisin Sədri "Vətən Müharibəsi Qəhrəmanı" adının döş nişanı və vəsiqəsini, eləcə də "Vətən uğrunda" medallarını şəhid polkovnik-leytenant Anar Əliyevin atası Vaqif Əliyevə və şəhid kapitan Nihad Babayevin atası Akif Babayevə təqdim etmişdir.

Şəhid Anar Əliyevin atası Vaqif Əliyev minnətdarlıq edərək demişdir: "İkinci Qarabağ müharibəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da böyük şücaət göstərmişlər. Dövlətimiz tərəfindən bütün şəhidlərin, eləcə də mənim övladımın yüksək ad və medalla təltif olunması şəhid ailələrinə göstərilən diqqətin bariz nümunəsidir".

Şəhid Nihad Babayevin atası Akif Babayev də ailə üzvləri adından minnətdarlıq edərək demişdir: "Naxçıvandan olan hərbi qulluqçular da ərazi bütövlüyümüzün bərpa olunmasında qəhrəmanlıq göstərmiş, torpaqlarımız düşmən tapdağından azad olunmuşdur. Bu yolda mənim də övladımın payının olması çox qürurvericidir".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan vəzifələr və yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan vəzifələrə və 2021-ci ilin birinci yarısında görülən işlərə həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclasda nazir, general-leytenant Şamı Abdullayev çıxış edərək bildirmişdir ki, nazirliyin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Mülki Müdafiə Alayında şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılmış, təmir və yenidənqurma işləri həyata keçirilmişdir.

Ötən dövr ərzində 1 kompleks mülki müdafiə təlimi, 16 taktiki-xüsusi təlim, 1 əməli məşğələ, 66 gecə məşğələsi, 4 komanda-qərargah məşqi, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin 2 şöbəsində kompleks yoxlama keçirilmişdir. Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə 1438 obyektdə yoxlamalar aparılmış, ümumilikdə, 57 min 631 nəfərin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Ot-taxıl biçininə hazırlıq dövründə 99 kombayn yanğın-texniki baxışdan keçirilmiş, 1505 nəfər sahibkar və torpaq mülkiyyətçisi təlimatlandırılmış, 10 un dəyirmanı və 2 yem anbarının yanğın təhlükəsizliyi vəziyyəti yoxlanılmış, əlverişli taxıl sahələrində 12 ədəd yanğınsöndürən avtomobil, sahələrdə 60-70 nəfərin patrul xidməti və 3 motoxilasedicinin xidmət aparması təşkil olunmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə yanğınlar 50 faiz azalmışdır.

Nazir qeyd etmişdir ki, hesabat dövründə 349 ədəd texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilmiş, 10 müəssisədə texniki qurğu dövlət reyestrində qeydiyyata alınmışdır. 65 müəssisədə 1296 nəfər işçinin iştirakı ilə maarifləndirici tədbir, muxtar respublikada olan 776 ədəd qazanxanada baxış-yoxlamalar keçirilmiş, maarifləndirici söhbətlər aparılmışdır.

"Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni istifadəyə verilmiş ümumi uzunluğu 417 metr olan 5 nömrəli duz mədənində aparılan işlərdə yanğın və texniki təhlükəsizlik tələblərinin həyata keçirilməsinə nəzarət edilmişdir.

Bildirilmişdir ki, cari ilin ötən 6 ayı ərzində 98 tikinti obyektində yoxlama-nəzarət funksiyaları həyata keçirilmiş, 27 obyektə "İstismara hazırlıq aktı" verilmiş, 10 ictimai yaşayış binasında 221 mənzildən 165 mənzilin tüstü bacası və havaçəkən kanalları təmizlənmişdir. Çimərlik mövsümündə, ümumilikdə, 10 min 912 nəfər vətəndaşın təhlükəsizliyi təmin edilmiş, suda boğulma təhlükəsi ilə üzləşən 10 nəfər xilas edilmiş, xoşagəlməz hadisə qeydə alınmamışdır.

Muxtar respublikada koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə nazirliyin şəxsi heyəti cəlb edilərək, ümumilikdə, 20 milyon 49 min 854 kvadratmetrdən artıq sahə dezinfeksiya edilmişdir.

Sonda məruzə ətrafında çıxışlar olmuşdur.



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə açan nazir Nicat Babayev qeyd edib ki, "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq ilin əvvəlində muxtar respublikada əmək bazarı təhlil edilib, özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilib, sosial qayğıya ehtiyacı olan 163 ailənin 764 üzvünün özünüməşğulluğu təmin olunub. Müvafiq dövrdə işaxtaran şəxslərin peşə hazırlığına cəlb olunması diqqətdə saxlanılıb, Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən 9 adda peşə və ixtisasartırma kurslarına 151 nəfər cəlb edilib, hazırlanmış 1800-dən çox əl işinin müxtəlif tədbirlərdə sərgi-satışları təşkil olunub.

Qeyd edilib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində 14 şəhid ailəsi fərdi yaşayış evi və mənzillərlə, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda, həmçinin hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığını qismən itirmiş 5 nəfər isə minik avtomobilləri ilə təmin olunub. Vətən müharibəsi qazilərindən 19 nəfərə sağlamlıq imkanları məhdudluqla bağlı təyinat aparılıb. Eyni zamanda Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, yaralananlar və onların yaxınları üçün Psixoloji Dəstək Xidməti yaradılıb. Ali Məclis Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanı əsasında yaradılmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna fiziki və hüquqi şəxslər tərəfindən könüllü ianələrin ödənişi davam etdirilir. Vurğulanıb ki, muxtar respublikada fiziki imkanları məhdudluğun qarşısının alınması, bu qəbildən olan şəxslərin sağlamlıqlarının bərpası və cəmiyyətə inteqrasiyası ilə bağlı görülən işlər çərçivəsində 141 şəxsə protez-ortopedik xidməti göstərilib, 90 nəfərə 283 ədəd köməkçi reabilitasiya vasitəsi verilib, respublikanın şəhər və rayonlarına bu məqsədlə səyyar xidmətlər təşkil olunub.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## Yarım ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2021-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasını Naxçıvan Muxtar Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq məruzə ilə çıxış edib.***

Bildirilib ki, muxtar respublikanın prokurorluq orqanları öz işini altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun hüquq-mühafizə orqanlarının profilaktika tədbirlərini davam etdirmələri, ictimai asayişin və sabitliyin qorunmasını daim diqqətdə saxlamaları barədə qarşıya qoyduğu vəzifələri həyata keçirmək istiqamətində qurub.

Qeyd olunub ki, həmin sessiyada kənd təsərrüfatına yararlı torpaqlardan qanunsuz istifadə ilə bağlı qarşıya qoyulan vəzifələr prokurorluq əməkdaşlarından aidiyyəti orqanlarla birlikdə bu sahəyə məsuliyyətlə yanaşmağı tələb edir. Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları aidiyyəti qurumlarla birlikdə torpaqların özbaşına zəbt olunması, qanunsuz tikintilərin aparılması və torpaqlardan təyinatına zidd istifadə hallarının qarşısının alınması üçün qanunvericilik çərçivəsində bütün zəruri tədbirlərin görülməsini təmin etməlidirlər.

Prokuror bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri hesabat dövründə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Keçirilən görüşdə tələbələrə startap layihələri və istintaq hərəkətlərinin aparılmasına aid slaydlar nümayiş etdirilib, həmçinin kitabxana fondu, prokurorluq orqanlarına müraciətlərə baxılması, ittihamı elanetmə qaydaları və ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında məlumatlar verilib.

Vurğulanıb ki, bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Prokurorluğu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyalarını, "Prokurorluq haqqında" qanunu və digər normativ-hüquqi aktları rəhbər tutaraq ictimai-siyasi sabitliyin, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yaxından iştirak edib, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıq göstərib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



İyulun 12-də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında keçirilən yığıncağı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova giriş sözü ilə açaraq bildirib ki, hesabat dövründə insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpası daim diqqət mərkəzində saxlanılıb. Belə ki, Müvəkkilə ünvanlanmış hər bir müraciət araşdırılıb, aid qurumlara sorğular göndərilib və şifahi qəbul zamanı ərizəçilərə hüquqi məsləhətlər verilib. Ərizəçilər tərəfindən Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada daxil olan müraciətlərə qanunla müəyyən edilən müddətlərdə baxılıb və bütün müraciətlər vaxtında cavablandırılıb.

Vurğulanıb ki, cari ilin birinci yarısında da səmərəli hüquq müdafiə mexanizmi kimi formalaşan Müvəkkil təsisatı tərəfindən preventiv mexanizm funksiyasının icrası təmin edilib, preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 23 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 38 başçəkmə həyata keçirilib. Başçəkmələr zamanı saxlanma şəraiti, işçi heyətinin rəftarı, qida rasionu, qidanın keyfiyyəti, tibbi xidmətin vəziyyəti, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılıb, saxlanılan şəxslərlə görüşlər keçirilib, onlarla ümumi və fərdi söhbətlər aparılıb, hüquq və vəzifələri izah edilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə cəzaçəkmə müəssisələrində cəzaçəkən məhkumların barəsində humanist cəza siyasətinə əsaslanan tədbirlərin uğurla davam etdirilməsi onların islah edilmə prosesinin sürətlənməsini, normal sosial faydalı həyata adaptasiya olunmasını və bu sosial qrupdan olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsini təmin edib.

Bununla yanaşı, muxtar respublikada əhalinin müxtəlif sosial qruplarına bərabər imkanların yaradılması, onların hüquq bərabərliyinin davamlı təmin edilməsi daim diqqətdə saxlanılıb və bu istiqamətdə tədbirlər uğurla davam etdirilib.

Bildirilib ki, Ombudsmanın fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrində 111, Müvəkkilin rəsmi internet səhifəsində 85, rəsmi "Facebook" səhifəsində 63, habelə muxtar respublikamızın müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialının təbliği ilə bağlı 188, ümumilikdə isə 447 informasiya materialı Müvəkkilin rəsmi internet, "Facebook" səhifələrində və digər kütləvi informasiya vasitələrində işıqlandırılıb.

Vurğulanıb ki, təsisat bundan sonra da insan hüquqlarının müdafiəsinin səmərəli həyata keçirilməsi məqsədilə beynəlxalq təcrübə mübadiləsi, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə, bu sahədə dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirməli və mütəmadi olaraq təkmilləşdirməlidir.

İclas məruzə ətrafında çıxışlarla yekunlaşıb.

* * *



Naxçıvan Beynəlxalq Hava Limanında cari ilin altı ayında görülmüş işlərin yekun iclası keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli açaraq bildirib ki, cari ilin ilk 6 ayı hava limanı üçün xüsusi əhəmiyyət kəsb edib. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağı istifadəyə verilib. Uçuş-enmə zolağında naviqasiya və işıqlandırma sistemləri müasir səviyyədə qurulub. Ərazidə peyk siqnallarını tənzimləyən yerüstü naviqasiya sistemləri, təhlükəli hava şəraitində təyyarələrin təhlükəsiz qəbulu və uçuşunu təmin etmək üçün radiorabitə vasitələri tamamilə yenilənib.

Qeyd olunub ki, aerodrom ərazisinə nəzarətin gücləndirilməsi, nəzarət postlarında iş şəraitinin yaxşılaşdırılması, sərnişinlərin terminal binasına daxil olduğu yerlərdə, habelə təyyarəyə buraxılış bölmələrində bir sıra məqsədyönlü tədbirlər aparılıb. Terminal binasında nəzarət olunmayan yerlərə yeni təhlükəsizlik kameraları quraşdırılıb. Aviasiya subyektlərinin nəzarət edilən ərazilərinə şəxslərin və nəqliyyat vasitələrinin giriş-çıxışı rejimlə nizamlanıb.

Vurğulanıb ki, hava gəmilərinə texniki xidmət sahəsi, yanğın təhlükəsizliyi və qəza xilasetmə komandası, texnoloji avadanlıqların istismarı və təmiri sahəsi, xüsusi avtonəqliyyat xidmətlərinin maddi-texniki bazası gücləndirilib, həmin xidmətlərə müasirtipli texnikalar verilib. Bu ilin ilk 6 ayı ərzində Naxçıvan Beynəlxalq Hava Limanı, ümumilikdə, 97 420 sərnişinə xidmət göstərib.

Direktor qeyd edib ki, Naxçıvan Beynəlxalq Hava Limanının inkişafına göstərilən qayğının daha bir nümunəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 iyun tarixli Qərarı ilə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tərkibindən çıxarılaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə verilməsi oldu. Bu, hava limanı üçün yeni prioritetlər, yeni layihələr həyata keçirməsinə və muxtar respublikamızın dünyada tanıdılmasına geniş imkanlar açacaq.

Sonra məruzə ətrafında çıxışlar olub.

## *"Naxçıvanbank"*ın yeni filialı tikilir



2008-ci ildən fəaliyyət göstərən "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin əhalinin əlverişli bank xidmətlərindən daha səmərəli yararlanması üçün ötən dövrdə bankın paytaxt Bakı və Naxçıvan şəhərlərində, o cümlədən Şərur, Culfa, Ordubad, Kəngərli rayonlarında filialları istifadəyə verilib. Bankın Şahbuz rayon filialı üçün yeni binanın tikintisi də artıq başa çatıb. Hazırda binada son tamamlama işləri aparılır.

Ümumilikdə, 465 kvadratmetr sahədə yerləşən filial iki mərtəbədən ibarətdir. Binanın birinci mərtəbəsində əməliyyat, xəzinə, server, qiymətlilərin saxlanılması və gözətçi otaqları, müştəri zalı, qazanxana və foye yerləşəcək. İkinci mərtəbədə isə direktor otağı, əlavə iş otaqları və foye nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinin ilk buraxılış mərasimi keçirilib.*

## Orta İxtisas Polis Məktəbində ilk buraxılış mərasimi keçirilib



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək bildirib ki, Orta İxtisas Polis Məktəbi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə yaradılıb. Məktəb muxtar respublikanın hüquq-mühafizə orqanlarının kadr təminatının həyata keçirilməsində mühüm əhəmiyyətə malikdir. Məktəbin məzunları təkcə daxili işlər orqanlarında deyil, həm də digər güc strukturlarında orta rəis heyətinin komplektləşdirilməsinə töhfə verəcəkdir.

Vurğulanıb ki, Orta İxtisas Polis Məktəbi yaradıldıqdan sonra qısa müddət ərzində məktəb üçün tədris kompleksi tikilib istifadəyə verilib. Burada kursantların təhsili üçün hər cür şərait yaradılıb. Cəlil Rüstəmov bildirib ki, bu mənada, muxtar respublikada təhsil davamlı inkişaf dövrünü yaşamaqdadır. Bu məktəb də Ali Məclis Sədrinin təhsil siyasətinə, gənclərin işlə təminatına, mənəvi cəhətdən sağlam və düşüncəli gəncliyin yetişdirilməsinə verdiyi dəyərin bariz nümunəsidir.

Cəlil Rüstəmov 2019-cu il oktyabrın 14-də məktəbin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin məktəbə daxil olmuş kursantlara tövsiyəsini xatırladıb: ***"Zabit olmağın şərəfi dövlətə və dövlətçiliyə sədaqətli olmaqdan, vəzifə və vətəndaşlıq borcunu vicdanla yerinə yetirməkdən ibarətdir".***

O, əminliyini bildirib ki, bugünkü məzunlar gələcək zabit fəaliyyətlərində bu tövsiyələri xidməti və kimi rəhbər tutacaq, layiqli asayiş keşikçisi olacaqlar. Məktəbin zabit-müəllim heyəti bundan sonra da Ali Məclis Sədrinin qarşıya qoyduğu vəzifələri uğurla yerinə yetirəcək, tədrisin keyfiyyəti diqqətdə saxlanılacaq, kursantlar dövlətə, xalqa sədaqət ruhunda tərbiyə ediləcəklər.

Buraxılış mərasimində Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov çıxış edərək muxtar respublikada ictimai-siyasi sabitliyin və dinamik inkişafın dayanıqlı xarakter almasından danışıb. Diqqətə çatdırılıb ki, bütün sahələrdə olduğu kimi, muxtar respublikada güclü təhsil infrastrukturunun yaradılması və innovativ inkişaf sahəsində həyata keçirilən mütərəqqi tədbirlər təhsilin beynəlxalq standartlar səviyyəsinə çatması ilə səciyyəvidir. Əsasən də xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinə göstərilən müstəsna qayğı 44 günlük Vətən müharibəsində naxçıvanlı gənclərin nümayiş etdirdiyi böyük şücaət və vətənpərvərlik nümunəsinin təməl daşı olmaqla yanaşı, muxtar respublikada həyata keçirilən siyasi xəttin düzgünlüyünü və alternativsizliyini bir daha təsdiq etdi.

Qeyd olunub ki, 2019-cu ilin oktyabr ayında məktəbin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qarşıya qoyduğu vəzifələri əldə rəhbər tutan daxili işlər orqanları istər məktəbə qəbul prosesində, istərsə də tədris zamanı mövcud qanunvericiliyə əsaslanaraq tam şəffaflıq prinsipləri üzrə fəaliyyət göstərib, nəzəri və praktik biliklərlə yanaşı, ümumi intellektual təfəkkürə malik olan, vətənpərvər polis zabitlərinin hazırlanmasına çalışıb.

Çıxışda məktəbdə xidmətə yeni qəbul edilən serjant heyəti üçün təşkil edilən kurs və seminar-məşğələlər haqqında da məlumat verilib.

Orta İxtisas Polis Məktəbinin məzunu, polis kiçik leytenantı Miribrahim Qasımov onlara yaradılmış şəraitə görə məzunlar adından minnətdarlığını bildirib. Sonra məzunlara diplomlar təqdim olunub. Məktəbi fərqlənmə diplomu ilə bitirən polis kiçik leytenantı Tural Səfərli tərəfindən xatirə kötüyünə lövhə vurulub, şəxsi heyət tərəfindən məktəbin marşı ifa edilib, təntənəli keçid olub.

**Muxtar MƏMMƏDOV**

## Universitetlər arasında ikili diplom layihəsinin icrasına başlanılıb



*Naxçıvan Dövlət Universitetinin rektoru və bir qrup əməkdaşı bu münasibətlə Çankırı Karatekin Universitetində olublar. Universitetin rektoru Harun Çiftçi qonaqları salamlayaraq onları burada qarşılamaqdan məmnunluq hisslərini ifadə edib.*

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, təmsil etdiyi ali təhsil ocağı ilə Türkiyənin 80-ə yaxın universiteti arasında tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqavilələri imzalanıb. Rektor Çankırı Karatekin Universiteti ilə əlaqələrin 2017-ci ildən başlandığını qeyd edib. Bildirilib ki, ali təhsil ocağında artıq ingilis dilində tədrisi həyata keçirilən İqtisadiyyat ixtisası üzrə kadr potensialı formalaşıb.

Elbrus İsayev Türkiyə universitetləri ilə həyata keçiriləcək ikili diplom layihələrinin hər iki ölkə üçün mühüm əhəmiyyətini vurğulayıb və gələcək perspektivlərini önə çəkib. Diqqətə çatdırıb ki, hər iki ali təhsil ocağı arasında imzalanan protokol Ali Təhsil Şurasının təsdiqindən sonra növbəti akademik ildən başlayaraq 5 il müddətində etibarlıdır.

Sonra imzalanmış protokola görə tərəflərin qarşıya qoyduqları öhdəliklər müzakirə edilib, universitetlərarası əməkdaşlıq sahələri haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, layihənin şərtlərinə görə ortaq proqram üçün universitetlər, ilk növbədə, təhsil almağa göndəriləcək tələbə sayını müəyyənləşdirib, eyni zamanda ortaq proqram çərçivəsində təqaüd alacaq tələbə kontingentinin müəyyənləşməsi üçün tələb olunan şərtləri dəqiqləşdirib, qiymətləndirmə sistemini də uyğunlaşdırıb. Ortaq proqramın məzunu olmuş tələbə universitetlər tərəfindən müəyyənləşdirilən bütün şərtləri yerinə yetirməlidir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən karqo şirkətlərinin nümayəndələri ilə növbəti görüş keçirilib.*

## Sürətli poçt xidmətlərinin fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir

Dövlət Gömrük Komitəsində keçirilən görüşdə komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 mart tarixli Qərarına əsasən muxtar respublikada sürətli poçt xidmətlərinin təşkili, müvafiq qaydada lisenziya almış şirkətlər tərəfindən fəaliyyətin müasir dövrün tələbləri səviyyəsində təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərdən danışıb. Karqo şirkətləri tərəfindən gömrük məqsədləri üçün məlumatların elektron qaydada təqdim olunması tələbi ilə bağlı işlərin sentyabr ayının 1-nə qədər başa çatdırılmasının zəruriliyini vurğulayan komitə sədri lisenziyasız fəaliyyətə yol verilməməsi üçün nəzarət tədbirlərinin gücləndirilməsinin əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, sürətli poçt göndərişlərində göndərilməsinə icazə verilən, həmçinin göndərilməsi qadağan olunan mallar, sürətli poçt göndərişlərinin qablaşdırılması, göndərilən malların qəbul edilməsi, çatdırılması, sürətli poçt göndərişlərinə aid məlumatların əldə edilməsinə dair tələblər daim diqqətdə və nəzarətdə saxlanılmalıdır.



Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri Vüsal Sevdimalıyev qeyd edib ki, sürətli poçt xidmətlərinin Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya verilmiş hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilməsi etibarlı və təhlükəsiz xidmətlərin göstərilməsini təmin edib, bu sahədə məmnunluq səviyyəsi xeyli yüksəlib. Müxtəlif şəhər və rayon mərkəzlərində yeni-yeni karqo məntəqələrinin fəaliyyətə başlaması sürətli poçt xidmətlərinin əhatə dairəsini genişləndirib, insanların rahatlığı təmin olunub.

Bildirilib ki, “Naxçıvan Muxtar Respublikasında sürətli poçt xidmətlərinin göstərilməsi Qaydaları”na əsasən sürətli poçt göndərişləri gömrük nəzarəti və rəsmiləşdirilməsi üçün gömrük orqanlarına düzgün bəyan olunmalı, sürətli poçt göndərişlərində qanunvericiliklə qadağan olunan mallar aşkar olunduqda bu barədə gömrük orqanları dərhal xəbərdar edilməlidir. Sürətli poçt göndərişlərinin qablaşdırılması onların gömrük orqanları tərəfindən tez və asanlıqla yoxlanılmasına çətinlik törətməməlidir. Sözügedən qaydalarda nəzərdə tutulmuş sürətli poçt xidmətlərinin göstərilməsi barədə tələblərin pozulmasına görə lisenziya verilmiş qurum qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

“Şərq qapısı” – 100

## “Şərq qapısı” qəzetinin ilk müxbirlərindən biri: Seyid Səbri



***1921-ci ildən Naxçıvanda nəşrə başlayan, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə yüzillik yubileyi muxtar respublika ictimai-siyasi həyatında mühüm hadisə kimi qeyd olunan “Şərq qapısı” qəzetinin ilk müxbirlərindən biri də Seyid Səbri Mirsadıq oğlu Əsədli (1896-1974) olmuşdur. S.Səbrinin “Şərq qapısı” qəzetinin 50 illiyi münasibətilə həmin qəzetin 1971-ci il 2 iyul tarixli nömrəsində çap etdirdiyi “Yaddaşımdan bir neçə söz” adlı məqaləsində qəzetin nəşrə hazırlanma şəraiti, böyük çətinliklər bahasına varlığını qoruya bilməsi, bu işdə fəallıq göstərən şəxslərin xidmətləri və özünün müxbirliyi haqqında maraqlı məlumatlar verilmişdir.***

İndiyədək “Şərq qapısı” qəzetinin nəşri tarixi haqqında xeyli xatirə materialları və məqalələr yazılmış, hətta bu mövzuda xüsusi monoqrafiya da çap olunmuşdur. Lakin buna baxmayaraq, S.Səbrinin həmin mövzuya aid məlumatları bu gün də öz orijinallığını və elmi dəyərini itirməmişdir. Odur ki, bu məlumatlar “Şərq qapısı”nın nəşri tarixinə dair araşdırmaların nəticələrinə yeni faktlar əlavə etmək baxımından əhəmiyyətlidir.

S.Səbrinin verdiyi məlumata görə, “Şərq qapısı” qəzetinin ilk mətbəəsi naxçıvanlı Məşədi Hüseynalı Budaqovun mehmanxanası (çayxanası) olmuşdur. “Abbas Gülməmmədov redaktor təyin olunduqdan sonra (A.Gülməmmədov 1925-ci ildə redaktor təyin edilmişdir.) Köy birliyinə məxsus tikilmiş bina boşaldılaraq mətbəə və redaksiyanın ixtiyarına verilmişdir”. Əvəz Sadığın redaktor olduğu zaman (1926-1927) redaksiya ölkə partiya komitəsinin binasına yerləşdirilmiş, 1928-ci ildə isə mətbəə redaksiyadan ayrılaraq sonralar Cəlil Məmmədquluzadənin adı verilən küçəyə köçürülmüşdür.

S.Səbrinin “Şərq qapısı”nın ilk texniki heyəti və müxbirləri haqqındakı məlumatları da maraqlı və əhəmiyyətlidir. Onun yazdığına görə, qəzeti buraxmaq üçün mürəttib olmadığından bu işi icra etmək və mürəttiblik işini yerli kadrlara öyrətmək üçün İrəvandan iki mütəxəssis – Xəlil Rəhimov və Xəlil Hüseynov Naxçıvana dəvət olunmuşdur. Onlar “mətbəəni sahmana salmaqla” yanaşı, Abbas Məmmədquluyev, Hacı Həşimov, Lətif Hüseynzadə, Əmir Məmiyev, İslam Orucov kimi gənclərə “şriftləri yerlərinə yığma və dağıtma qaydaları”nı da öyrətmişdilər. Yeri gəlmişkən, S.Səbrinin bəhs etdiyi məsələyə toxunan “Şərq qapısı”nın idarəsi hələ 1924-cü ildə oxuculara belə bir məlumat vermişdi: “O zaman (1921-ci il – F.X.) məmləkət yalnız mətbəə məsailindən tək bir Amerikanka, bir cüzi də hürufata malik idi. Söz yox ki, qəzetə nəşri çətin olardı. Nə etməli, heç olmamışdansa, genə nöqsanlı idi, deyə qəzetə nəşrinə şüru edildi”.

S.Səbri qəzetin ilk müxbirlərindən olan Sadıq Bağırov, Məmmədəli Əsədullazadə, Molla Mahmud Çakər, Əkbər Abbasov, Həsən Səfərli və Müseyib Mehdiyevin də adlarını çəkir. Ən maraqlısı isə budur ki, o, 1925-ci ilin avqust ayında Naxçıvanda birinci müxbirlər qurultayının keçirildiyini bildirir. Bu məlumatın izi ilə gedib “Şərq qapısı” qəzetinin 23 avqust 1925-ci il tarixli 44-cü nömrəsində həmin qurultayın çağırılması və gedişinə dair ətraflı məlumat verən “Birinci ümumnaxçıvan müxbirlər qurultayı” sərlövhəli yazını aşkara çıxardıq. Yazıdan aydın oldu ki, avqust ayının 15-də çağırılan və iki gün davam edən bu qurultayın, S.Səbrinin çox doğru olaraq qeyd etdiyi kimi “gündəliyindəki əsas məsələ kütlə arasında qəzetin (“Şərq qapısı”nın – F.X.) qiymətləndirilməsi, onun geniş yayılması, oxunub izah olunması və müxbirlər hərəkatının genişləndirilməsi idi”.

Qurultayda çıxarılan qərarlardan biri belə idi: “Qəzetimizin tirajını artırmaqdan ötrü abunə işinin genişlənməsi yolunda çalışmağı bütün müxbirlərə tapşırmaq”.

Naxçıvan müxbirlərinin birinci qurultayının qarşıya qoyduğu vəzifələri digər həmkarları kimi işgüzarlıqla yerinə yetirən S.Səbrinin də “nüsxəsi bir qəpiyə olan qəzetin” əhaliyə, idarə və təşkilatlara satılmasında və yayılmasında özünəməxsus xidmətləri olmuşdur. Araşdırmalar göstərir ki, bu səlahiyyət S.Səbriyə rəsmi şəkildə də verilmişdir. Bunu təsdiq edən sənəddə yazılır: “Şəhadətnamə. İş bu Şəhadətnamə verilir “Şərq qapısı” qəzetinin idarəsi tərəfindən yoldaş Seyid Səbriyə ol barədə necə ki, qəzetimizin müxbir və müvəkkili olduğu üçün qəzetimizə borclu olan müəssisələrdən və şəxslərdən borc pullarını (abunə haqlarını) yığmaq məzkura həvalə olunur. Ona binaən hər bir hökumət müəssisədən və xüsusi yoldaşlardan öz borclarını yoldaş Seyid Səbriyə vermələrini xahiş edirik. “Şərq qapısı” qəzetinin müdiri Əvəz Sadıqov. № 63. 23/VIII –1926-cı il”.

1925-ci ilədək S.Səbrinin “Şərq qapısı”nda dərc olunan heç bir yazısına rast gəlməmişik. Bəlkə, ona görə ki, qəzetin həmin ilədək bütün nömrələri ortada yoxdur. Əldə olan nadir nüsxələrin bir qismi isə yararsızdır: ya cırılıb, ya da solduğu üçün oxunmur. İnanmaq olmur ki, “Şərq qapısı”nın nəşrolunma prosesini detallarınadək izləyən və bilən, onun əməkdaşları ilə yaxından tanış olan S.Səbri 1925-ci ilədək bircə yazısını da bu qəzetdə dərc etdirməsin. Lakin fakt faktlığında qalır. S.Səbrinin “Şərq qapısı”nda hələlik bizə bəlli olan ilk yazısı qəzetin 22 fevral 1925-ci il tarixli 15-ci nömrəsində dərc edilən “Darülmüəllimin” sərlövhəli yazıdır. Yazının sonunda “S.S.” imzası qoyulmuşdur. Qəzetin 1925-ci il nömrələrində bu imza ilə daha 5 yazıya da rast gəlmişik. Bu imzaların S.Səbriyə aid olması qənaətindəyik. Çünki S.Səbri 1952-ci ildə Bakıda nəşrə başlayan “Kirpi” jurnalında çap olunmaq üçün göndərdiyi “Məsləhət” adlı şeirində həmin imzanın ona məxsus olduğunu özü açıq şəkildə etiraf edir: “Müxlisinizdir yazan “Sin” ilə “Sad”dır (yəni “S.S”. – F.X.) adım”. Bundan başqa, o, “Seyid Səbri” və “Səbri” imzalarından da istifadə etmişdir.

1925-1927-ci illərdə S.Səbrinin “Şərq qapısı” qəzetində 25-dən çox məqaləsi dərc olunmuşdur. “Darülmüəllimində”, “Hansı vasitələrlə qəzetəmiz intişar tapar”, “İt boğuşdurmaq”, “Axşam texnikumu lazımdır”, “Oğurluq”, “Quyulu dağ”, “Kooperativ lazımdır”, “Tədqiq və Tətəbbö Cəmiyyətində”, “Bu gün”, “Ordubad qəzasında asari-ətiqə”, “Yeni klub açıldı”, “Kəndli əkinləri mühafizə olunmalıdır”, “Qarababa kəndinin vəziyyəti”, “Naxçıvan ölkəsində yeni əlifba işləri” və digər məqalələrində o, yeni quruluşun tərənnümü, maarif, elm və mədəniyyətin təbliği, gerilik, xurafat və nadanlığın tənqidi, qadın hüququnun müdafiəsi, müəyyən neqativ hallar və muxtar respublikanın bəzi şəhər və kəndlərinin problemlərindən bəhs etmişdir.

S.Səbrinin “Şərq qapısı”nda dərc olunan yazılarının təhlili göstərir ki, o, fəal bir müxbir kimi dövrü üçün aktual olan problemləri gündəmə gətirmiş və özünəməxsus bir tərzdə oxuculara təqdim edə bilmişdir.

1927-ci ildə Bakıya təhsil almağa getdiyi üçün S.Səbrinin “Şərq qapısı”ndakı müxbirlik fəaliyyəti başa çatmışdır. Lakin sonralar o, artıq müxbir kimi yox, yaradıcı bir şəxs kimi həm “Şərq qapısı”nda, həm də digər qəzet və jurnallarda yazılarını dərc etdirmişdir.

**Fərman XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru*

## Ordubad rayonunda muxtar respublikanın aparıcı mətbuat orqanının yubileyi qeyd olunub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər planına əsasən iyulun 12-də Ordubad şəhərindəki Mədəniyyət Sarayında mətbu orqanın yubiley tədbiri keçirilib.*



Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açaraq “Şərq qapısı” qəzetinin mətbuat tariximizdəki əhəmiyyətindən, muxtar respublikanın, o cümlədən də Ordubad rayonunun sosial-iqtisadi inkişafının, ictimai-siyasi həyatının tarixiləşdirilməsindəki müstəsna rolundan bəhs edib.

“Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxışında 100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, milli mətbuatımıza göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən “Şərq qapısı” qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüş, 1990-cı il 20 yanvar tarixdən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirmişdir. 1990-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qəzetin müstəqil mətbuat orqanı kimi formalaşması mərhələsinin əsası qoyulmuş, ulu öndər qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Müstəqillik illərində Naxçıvanda mətbuatın inkişafına dövlət qayğısından bəhs edən baş redaktor vurğulayıb ki, 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, eləcə də Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsin yaradılması “Şərq qapısı” qəzetinin peşəkarlıq fəaliyyətinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərib. Qeyd olunub ki, “Şərq qapısı” qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunub, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilib. “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamın imzalanması və bu sərəncamla Tədbirlər planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymət kimi dəyərləndirən baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov “Şərq qapısı qəzetinin muxtar respublika mətbuatının inkişafında rolu” mövzusunda çıxış edərək bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır. Çıxışda “Şərq qapısı” qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından qəzetin nəşri üçün müasir iş şəraiti yaradılmasından bəhs edilib.

Tədbirdə “El həyatı” qəzetinin redaktor əvəzi, Əməkdar jurnalist Abbas Seyid, Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Ordubad Rayon Təşkilatının sədri Fərrux Nağızadə, “Şərq qapısı” qəzetinin İqtisadiyyat və təhlil şöbəsinin müdiri Səbuhi Həsənov, AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova, “El həyatı” qəzetinin əməkdaşı Bahar Əliyeva, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Gənclər Birliyinin sədri Nurlan Səfərli çıxış edərək “Şərq qapısı” qəzetinin fəaliyyətindən, milli mətbuatımızın inkişafındakı rolundan ətraflı söhbət açıblar.

Tədbir ərzində qəzetin tarixi inkişaf yolu və fəaliyyət prinsipini, eləcə də Ordubad rayonunun qədimliyini, müasir görkəmini, rayonla bağlı qəzetdə dərc olunan materialları əks etdirən videoslayd nümayiş olunub.

Tədbirin sonunda “El həyatı” qəzetinin redaktor əvəzi, Əməkdar jurnalist Abbas Seyidə “Şərq qapısı” qəzetinin Fəxri fərmanı və hədiyyə, qəzetlə yaxından əməkdaşlıq edən digər qələm sahiblərinə isə hədiyyələr təqdim olunub.

**Gülcamal TAHİROVA**

Mütəxəssis sözü

# Mediasiya mübahisəli məsələlərin həllində müasir, humanist vasitədir

***Bu il iyulun 1-dən ölkəmizdə mübahisələrin barışıqla yekunlaşmasına xidmət edəcək "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanunu qüvvəyə minib. Artıq əvvəllər birbaşa məhkəmələrdə baxılmalı olan müəyyən kateqoriya işlərə mediasiya prosesi çərçivəsində baxılacaq və həmin prosesi keçmədən qeyd olunan ərizələrə məhkəmələrdə baxılmasına yol verilməyəcək. Dövlətin çiyinlərinə götürdüyü böyük bir işin yeganə məqsədi ondan ibarətdir ki, mübahisələr maksimum tərəflərin qarşılıqlı razılığı ilə onların mənafeyinə uyğun olaraq birdəfəlik həll edilsin.***

Mediasiya prosesi mübahisənin həllində tərəflərin əməkdaşlığına, habelə ünsiyyət və danışığa əsaslanır. Ona görə insanlar bu prosesin mahiyyətini dərk etməli və onların tətbiqinə qarşılıqlı çalışmalıdırlar.

Bəs mediasiya nədir? Mediasiya tərəflər arasındakı mübahisənin mediatorun köməyi ilə könüllü olaraq həlli ilə bağlı qurulmuş bir prosesdir. İnsanlar bu prosesdə iki istiqamətdə iştirak edəcəklər. Birincisi, tərəflər müəyyən kateqoriya işlər üzrə mübahisə edənlər mütləq mediasiyadan (məcburi mediasiya) keçməlidirlər. Mediasiya prosesindən keçməsələr onların ərizələri məhkəmələr tərəfindən baxılmağa qəbul edilməyəcək. İkincisi isə tərəflər özləri əvvəlcədən mübahisəyə mediasiyada baxılması barədə razılığa gəlmiş olsunlar. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununa əsasən istənilən mülki iş və iqtisadi mübahisə (xarici elementli mübahisələr də daxil olmaqla), ailə münasibətlərindən irəli gələn mübahisələr, əmək münasibətlərindən irəli gələn mübahisələr, inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrə mediasiya prosesində baxıla bilər. Konkret işə mediasiyada baxılması üçün mübahisə tərəfləri könüllü olaraq müqavilə bağlamalıdırlar. Belə razılaşma əvvəlcədən və yaxud işə məhkəmədə baxılarkən də bağlana bilər.

Belə bir sual meydana gəlir: Nə üçün mübahisəyə müvafiq məhkəmədə yox, məhz mediasiya prosesində baxılmalıdır və bunun üstün cəhətləri nədən ibarətdir? İlk növbədə, qeyd olunmalıdır ki, mübahisənin mediasiyada həlli mübahisə edən tərəflərin mənafeyinə hesablanmışdır. Qanuna əsasən mediasiya prosesi 30 gün ərzində başa çatmalıdır. Bu prosesdə tərəflər sərbəstdirlər, barələrində məcburi qərar qəbul edilməsinin psixoloji təsirindən kənardırlar, qərarı onlar qəbul edirlər və onlara kömək edən bir peşəkar var – mediator. Mediasiyanın məhkəmədən daha bir fərqi bu prosesdə qəbul edilən qərarların xarakterindədir. Məhkəmə Azərbaycan dövlətinin adından tərəflər üçün məcburi olan bir qərar qəbul edir. Həmin qərarla mübahisə həll edilsə də, bir tərəfin narazı qalması istisna deyil. Lakin mediasiya prosesində mübahisə ilə bağlı qərarı tərəflər özləri qəbul edirlər. Prosesi aparan mediator qərar qəbul etməkdə tərəflərə ancaq köməklik edir. Mediator hər hansı qərarın qəbul edilməsini tərəflərə göstəriş verə bilməz. Çünki mediasiya könüllü bir prosesdir. Tərəflər istənilən an mediasiyanı dayandıra bilərlər. Eləcə də məhkəmədən fərqli olaraq bu prosesdə mediatoru tərəflər özləri seçirlər. Tərəflər onların işlərinə istənilən mediatorun baxması ilə bağlı razılığa gələ bilərlər. Əgər mediatorun peşəkarlığı tərəflərdən hər hansı birini qane etməzsə və yaxud mediatorun qərəzsizliyinə şübhə yaranarsa, hər hansı bir tərəf ondan imtina, mediasiya sessiyasını isə tərk edə bilər. Çünki mediatorun fəaliyyəti tərəflərin etimadı əsasında həyata keçirilir. Mübahisə edən tərəflər mediatora inanmalı, etibar etməli, lazım gələndə problemlərini onunla bölüşməli, sirlərini ona açmalıdırlar. Mediasiya prosesində mediatorun tərəflərə daha yaxın olaraq etimad qazanması əsas şərtlərdən biridir. Mediator məhz həmin vasitələrdən istifadə etməklə tərəfləri barışığa gətirməlidir. Nəzərə almaq lazımdır ki, mediasiya prosesində tərəflərin mediatora etimad göstərərək hər hansı məlumatı verməsinin heç bir təhlükəsi yoxdur. Çünki, əvvəla, mediasiya prosesi qapalı aparılır. Bundan başqa, mediasiya prosesində səsləndirilən bütün fikirlər, məlumatlar məxfi saxlanılır. Həm tərəflər, həm də mediator həmin məlumatların məxfiliyinə, onların yayılmamasına görə məsuliyyət daşıyır, digər proseslərdə onlardan istifadə edə bilməzlər. Bu qaydalara riayət edilməməsi məsuliyyətə səbəb olur.

Qanunda o da qeyd edilir ki, mediasiya iştirakçılarının və mediasiyada iştirak edən digər şəxslərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək hüququ yoxdur (həmin məlumatı verən tərəfin yazılı razılığı olduğu hallar istisna edilməklə) və belə məlumatlarla bağlı həmin şəxslər şahid qismində iştirak edə bilməzlər.

Milli qanunvericilikdə müəyyən kateqoriya işlər üzrə məcburi mediasiyanın tətbiqinin çox böyük üstünlükləri var. Çünki bu qanun mübahisə edən tərəfləri məhkəməyədək bir masa ətrafında əyləşməyə sövq edir. Məcburi mediasiya sessiyasında iştirak etməkdən yayınma qanunla məsuliyyətə səbəb olur. Qanunun əsas məqsədi ondan ibarətdir ki, tərəflərin münasibətlərinin sonadək pozulmadığı, münasibətlərin daha aqressiv olmadığı, bütün şansların tükənmədiyi bir məqamda tərəflər bir-birini dinləsinlər. Bir çox hallarda insanların mübahisə tərəfi ilə danışmağa ehtiyacı var. Tərəflərin danışıqlarının barışıqla bitməsində mediatorların peşəkarlığının müstəsna rolu olacaq. Mediator insanlarla yüksək danışıq aparmaq qabiliyyəti olan, insanların mənəvi-psixoloji vəziyyətini, yaşam tərzini başa düşən, milli-adət ənənələri yaxşı bilən, təcrübəli, peşəkar şəxslərdən seçilirlər. Çünki mübahisə ilə bağlı tərəfləri barışığa gətirmək üçün mediatorun istifadə etdiyi vasitələr həmin bacarıqlardan irəli gələcək.

İnsanları ən çox maraqlandıran məsələlərdən biri də mediasiya prosesinin necə başlanması və yekunlaşması prosedurudur. Mediasiya institutu ölkəmizdə bir yenilik olduğu üçün ilkin vaxtlarda tərəflərin öz təşəbbüsü ilə işlərin mediasiyaya verilməsi hallarının azlığ təşkil etməsi istisna deyil. Bu sahədə uğurlar mediasiya prosesinin sonrakı müvəffəqiyyətindən asılı olacaq. İlkin olaraq iqtisadi, ailə və əmək mübahisələrinə məcburi olaraq mediasiya sessiyalarında baxılacaq. Yəni qeyd olunan işlər üzrə müraciətlər artıq məhkəmələrə deyil, mediasiyaya veriləcəkdir. Həmin işlər üzrə tərəflərin ilkin mediasiya sessiyasında iştirak etdiyi andan mediasiya prosesi başlanmış sayılır. Tərəflərə ilk mediasiya sessiyası barədə məlumat verilir və onlar mediasiya prosesində bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak edə, vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən yararlana bilərlər. Tərəflərin razılaşması ilə onlara qərar qəbul etməyə kömək edə biləcək digər şəxslər də mediasiya prosesində iştirak edə bilər. Tərəflər öz mövqelərinə və mübahisənin həlli şərtlərinə dair təkliflərini yazılı və ya şifahi şəkildə bildirirlər.

Mediasiya prosesində tərəflər mübahisənin həlli şərtlərinə dair razılığa gələ bilərlər. Prosesin hər hansı mərhələsində mediator mübahisənin həlli məqsədilə tərəflər üçün öhdəlik nəzərdə tutmayan şifahi və ya yazılı təklifi irəli sürə bilər. Mediasiyanın uğurlu nəticəsi olaraq tərəflər arasında barışıq sazişi bağlanılır. Barışıq sazişi ilə tərəflər mübahisənin həlli ilə bağlı müəyyən şərtlər əsasında razılığa gəlirlər və sazişin şərtlərini özləri müəyyənləşdirirlər. Bu saziş imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər başqa müddət müəyyən etməsələr, saziş imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır. Bundan boyun qaçırma isə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən edilən məsuliyyətə səbəb olur. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf barışıq sazişinin məcburi icrası üçün məhkəməyə və ya notariusa müraciət edə bilər. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə və ya notarius tərəfindən müvafiq qaydada təsdiq olunur. Mediasiya prosesi barışıq sazişinin bağlanması ilə nəticələnmədiyi halda mediator mediasiyaya xitam verir və bu barədə tərtib edilmiş müvafiq sənədi tərəflərə təqdim edir. Məhz bundan sonra tərəflər həmin sənədi əlavə etməklə ümumi qaydada məhkəməyə müraciət edə bilərlər.

**Səttar ZAMANOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri***

## Naxçıvan Muxtar Respublikası üzrə 12 iyul 2021-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 985 | 985 | 2722 | 27,6 |
| 2. | Şərur rayonu | 3866 | 3866 | 15655 | 40,5 |
| 3. | Babək rayonu | 10823 | 9932 | 31914 | 32,1 |
| 4. | Ordubad rayonu | 1597 | 1597 | 4556 | 28,5 |
| 5. | Culfa rayonu | 5638 | 5638 | 16363 | 29,0 |
| 6. | Kəngərli rayonu | 5998 | 5868 | 17645 | 30,1 |
| 7. | Şahbuz rayonu | 1531 | 723 | 2055 | 28,4 |
| 8. | Sədərək rayonu | 2283 | 2283 | 8407 | 36,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32721** | **30892** | **99317** | **32,1** |

## Ekoloji sabitlik sağlamlığa təminatdır



***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.***

İyun ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 12 yoxlama-reyd keçirilmiş, 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür.

Əhali arasında aparılan ekoloji-hüquqi maarifləndirmə tədbirləri də diqqətdə saxlanılmışdır. Bu məqsədlə Şahbuz rayonunun Biçənək kəndində ətraf kəndlərin də nümayəndələrinin iştirakı ilə əhali arasında keçirilən maarifləndirmə tədbirində, ətraf mühitin mühafizəsi, brakonyerlik hallarına qarşı birgə mübarizə, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları və torpaqların münbitliyinin qorunması haqqında müzakirələr aparılmışdır.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında iyun ayı ərzində Araz çayının muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 8, Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən isə 4 olmaqla, ümumilikdə, 20 su nümunəsi götürülmüş və 194 analiz aparılmışdır.

Ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması məqsədilə 655 dibçəkdə yetişdirilmiş tinglə bərpa aparılmış, 35 hektar sahədə cərgələrarası texnika vasitəsilə kultivasiya olunmuş, suvarılmış, su xətlərində bərpa işləri davam etdirilmiş, otbiçən aqreqatlarla 45 hektar sahədə ot biçilmiş, tinglərə aqrotexniki qaydada qulluq göstərilmiş, toxmacarlıqlara 150 kiloqram gübrə verilmiş, təsdiq olunmuş toxum bölgüsünə uyğun olaraq toxum tədarükünə başlanılmışdır.

Ay ərzində ziyanvericilərə qarşı aparılmış dezinfeksiya tədbirləri zamanı Batabat meşəsi ərazisində, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi ətrafında, Gömür, Nursu və Biçənək avtomobil yollarının kənarındakı yaşıllıq zolaqlarında dərmanlama işləri icra edilmişdir.

Hesabat ayında nazirlik tərəfindən iməciliklər yolu ilə salınmış bağlardan toplanmış 3520 kiloqram müxtəlif meyvə hərbi hissələrə sovqat aparılmışdır.

Yaylaq mövsümü ilə əlaqədar ötən ay Şahbuz rayonunun Batabat, Keçili və Qızıl Qışlaq kəndləri ərazisində məskunlaşmış fermerlərlə fərdi görüş keçirilmiş və yaylaqdan istifadə qaydaları haqqında maarifləndirici söhbət aparılmışdır.

5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə ekologiya könüllülərinin və bir qrup gəncin iştirakı ilə Heydər Əliyev Su Anbarının ətrafında təmizlik aksiyası keçirilmiş, gənclərə ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər və görülən işlər haqqında geniş məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya vəTəbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluq imkanları artırılıb. Bu istiqamətdə aparılan tədbirlərin davamı olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən iyul ayının 12-də Kəngərli rayonunda keçirilən əmək yarmarkasında işaxtaranlara 9 dövlət, 7 özəl sektor olmaqla, ümumilikdə, 16 müəssisədən 111 boş iş yeri təqdim olunub. Əmək yarmarkasında 33 nəfər sözügedən vakansiyalar üzrə işə göndərilib, 2 nəfərin peşə hazırlığı kurslarına, 6 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.



Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Sədərək rayonunda təşkil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 556